*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 49-54* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.1.49*

# Hikmət Ziya: XX əsr Azərbaycan poeziyasının təmsil ustası

**Aygün Bağırlı**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
https://orcid.org/0000-0001-9887-7713
E-mail: aygunbagir77@gmail.com

**Annotasiya.** Şair, dramaturq, tərcüməçi, Əməkdar incənət xadimi Hikmət Ziya bir çox janrlarda əsərlər yazmışdır. Lirik və satirik şeirlər, poema, hekayə, nağıl-povest, pyes, səhnəcik, publisistik məqalələr müəllifi olan şair ədəbiyyatda daha çox təmsilləri ilə tanınmışdır. Hikmət Ziya təmsillərində cəmiyyətdə baş verən xoşagəlməz hadisələri, nöqsan və qüsurları daha çox heyvan və bitkilərin timsalında ifadə edirdi. Təmsillərində insanlara xas müsbət, yaxud xoşagəlməz xüsusiyyətləri heyvanların üzərinə köçürməklə ifadə edən şairin məqsədi oxucularda, xüsusilə yeniyetmə və uşaqlarda mənəvi-əxlaqi keyfiyyətlər, zəhmətsevərlik, ətrafındakılara ədalətli münasibət, cəmiyyətlə uğurlu ünsiyyət kimi dəyərlər aşılamaq olmuşdur.
Hikmət Ziyanın yaradıcılığında Vətən, onun əsrarəngiz gözəllikləri, maddi, mənəvi sərvətləri, tarixi nailiyyətləri də vəsf olunmuşdur. Hikmət Ziya öz çoxyönlü fəaliyyəti və yaradıcılığı ilə Azərbaycan ədəbiyyatının, xüsusilə uşaq ədəbiyyatının, uşaq mətbuatının inkişafına xidmət etmiş, Azərbaycan poeziyasında təmsil janrının formalaşmasında böyük rol oynamışdır. Məqalədə şairin çoxyönlü fəaliyyətindən bəhs edilmiş, yaradıcılığı müxtəlif istiqamətlərdən təhlilə cəlb edilmişdir.
**Açar sözlər:** Hikmət Ziya, uşaq ədəbiyyatı, təmsil ustası, uşaq mətbuatı, nağıl-povest

**Məqalə tarixçəsi:** göndərilib – 11.04.2025; qəbul edilib – 21.04.2025

# Hikmet Ziya: the master of fable in Azerbaijani poetry of the 20th century

**Aygun Bagirli**
Doctor of Philosophy in Philology, Associate Professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS
https://orcid.org/0000-0001-9887-7713
E-mail: aygunbagir77@gmail.com

**Abstract.** The poet, playwright, translator, Honored Artist Hikmet Ziya wrote the works in many genres. The poet who was the authors of lyrical and satirical poems, stories, fairy tales-narratives, plays, scenes, publicistic articles was known in literature mainly by his fables. Hikmet Ziya expressed the unpleasant events that occured in society, defects and flaws in the example of animals and plants in his fables. The poet expressed the positive and negative characteristics of humans through animals and his aim was to convey values such as moral and ethical qualities, diligence, fair treatment of those around them, successful communication with society to the readers, especially the youth and children.
In the creativity of Hikmet Ziya was praised the Homeland, its mysterious beauties, material and spiritual wealth, historical achievements. Hikmet Ziya by his multifaceted activity and creativity served to the development of Azerbaijani literature, especially children's literature, children's press; and played a major

role in the formation of fable genre in Azerbaijani poetry. In the article is dealt with the multifaceted activity of the poet and his creativity was analyzed in various directions.
**Keywords:** Hikmet Ziya, children's literature, master of fable, children's press, fairy tale-narrative

**Article history:** received – 11.04.2025; accepted – 21.04.2025

## Giriş / *Introduction*

Şair, dramaturq, tərcüməçi, Əməkdar incənət xadimi Hikmət Ziya bir çox janrlarda əsərlər yazmışdır. Lirik və satirik şeirlər, poema, hekayə, nağıl-povest, pyes, səhnəcik, publisistik məqalələr müəllifi olan şair ədəbiyyatda daha çox təmsilləri ilə tanınmışdır. Hikmət Ziya təmsillərində cəmiyyətdə baş verən xoşagəlməz hadisələri, nöqsan və qüsurları daha çox heyvan və bitkilərin timsalında ifadə edirdi. Azərbaycan ədəbiyyatında təmsillərə hələ Nizami Gəncəvinin, Məhəmməd Füzulinin, Xətainin, Abbasqulu Ağa Bakıxanovun, Qasım bəy Zakirin, Seyid Əzim Şirvaninin, Mirzə Ələkbər Sabirin, Abdulla Şaiqin yaradıcılığında rast gəlinsə də, sonrakı mərhələdə janra müraciət daha çox Hikmət Ziyanın adı ilə bağlıdır. Onu "Azərbaycan poeziyasının Krılovu", "ustad təmsilçi", "təmsilin ustadı" adlandıranlar haqlı idilər. Üç minə yaxın təmsil yazan şair heyvan və bitkiləri, ayrı-ayrı təbiət varlıqlarını, müxtəlif əşyaları, durğu işarələrini, hərf və rəqəmləri şəxsləndirmiş, onların maraqlı obrazlarını yaratmışdır. Onun təmsilləri özündə hikmət, lakoniklik, maraqlı fikir tutumu əks etdirir. Məsuliyyətsiz, iddialı, iş bacarmayan, tənbəl, yalan danışan, paxıl, saxtakar və nankorluq kimi xüsusiyyətləri öz təmsillərində tənqid atəşinə tutan şair yazır ki:

*Mənə deyənlər var: "Doymadın cana?*
*Təmsilin sonuna nöqtə qoysana!*
*Əl çək Koramaldan, Kərtənkələdən,*
*Tülküdən, Çaqqaldan, Qurddan, Dələdən,*
*Kağızdan, Qələmdən, yaxud pozandan,*
*Çömçədən, Nimçədən, Misdən, Qazandan…"*
*– Xeyr! Əl çəkmərəm, söyləyirəm mən, –*
*Tülkü əl çəkməsə tülkülüyündən,*
*Çaqqal Şirə quyruq bulamağından…*
*Xülasə, qısa,*
*Əşyalar, heyvanlar olmasa adam,*
*Təmsilin sonuna nöqtə qoymaram.* [5, s.5]

## Əsas hissə / *Main part*

Təmsil yazmaq müəllifdən həm diqqətli müşahidə qabiliyyəti, gördükləri ilə heyvan və cansız varlıqlar arasında uyğunluq tapmaq, onların obrazları vasitəsilə fikrini aydın çatdırmaq və ibrətamiz nəticəyə gəlmək kimi bacarıqlar tələb edir ki, Hikmət Ziya şeirində bütün bu xüsusiyyətlər gözlənilmişdir. Bilal Həsənli bu haqda yazmışdır: "Yığcamlıq, sərrastlıq, aforistik ifadələr, incə kinayə, işıqlı yumor, həyat həqiqətlərinin bədii əksi ədibin təmsillərinin başlıca xüsusiyyətləridir" [2, s.396].

Təmsillərində insanlara xas müsbət, yaxud xoşagəlməz xüsusiyyətləri heyvanların üzərinə köçürməklə ifadə edən şairin məqsədi oxucularda, xüsusilə yeniyetmə və uşaqlarda mənəvi-əxlaqi keyfiyyətlər, zəhmətsevərlik, ətrafındakılara ədalətli münasibət, cəmiyyətlə uğurlu ünsiyyət kimi dəyərlər aşılamaq olmuşdur. Şairin həm böyük, həm kiçikhəcmli təmsilləri oxucuda tanıdığı bir

xarakteri, rastlaşdığı hadisəni yada salır. Hətta bu təmsillərdə hansısa millətə xas olan xüsusiyyətləri də görmək olur. Məsələn, "Tarix uyduran bayquş" təmsilində özülü zəif olduğu üçün dağılan yeni bir tikilinin – xarabalığın üstünə qonub "min il qabaq burada yurd salmışdır əjdadım", – deyən bayquş bizə yalançı, iddialı qonşularımızı xatırladır. Yaxud aşağıdakı təmsildə başqasının bacarığını, uğurunu gözü götürməyənlərin obrazını görürük:

*Tərifli söz danışsan*
*Dovğaya Doğramacdan,*
*Deyirdi eyham ilə:*
*– Çiydir, bişməyib hələ.* [5, s.471]

İynənin bacarığını üsküyün qabiliyyəti hesab edən sancaq, bülbülün səsini bəyənməyən cırcırama, qurbağa və sərçə, çaya paxıllıq edən arx, çəngəli gözü götürməyən yaba, palıd ağacına tənə edən cır armud, Bal Arısının işinə şərik olmaq istəyən Eşşək Arısı, Ələkdən şikayət edən Kəpək, Ağacdələni lazımsız bilən Ağacqurdu kimi özünəməftunlar, heç nəyə faydası olmayanlar Hikmət Ziya təmsillərinin maraqlı obrazlarıdır. Azyaşlılar bu təmsillər vasitəsilə təbiəti, cəmiyyəti, onun yazılmamış qanunlarını əylənə-əylənə öyrənir, nəticə çıxarır, həm ədəbi-estetik, həm tərbiyəvi keyfiyyətlərə yiyələnirlər. Belə maraqlı təmsillərdən biri də bülbül və sərçə haqqındadır. Öz "ifası" haqqında bülbülün fikrini bilmək istəyən sərçə xeyli cik-cikdən sonra ustadın münasibətini soruşur:

*Sonra sual etdi: - Əziz Bülbülüm,*
*Necədir? İstədim rəyini bilim.*
*Bülbül cavab verdi açıqürəklə:*
*– Müğənniyə fitri, xoş səs gərəkdir,*
*Yoxsa, de, səni kim dinləyəcəkdir?!*
*O gündən bu Sərçə hara baş çəkir,*
*Dərin ah çəkir,*
*Deyir: – Cavanlara Bülbül dağ çəkir!* [5, s.462]

Şairin "Qış yuxuları", "Yeni ildən umacaqlar", "Qarğış təmsilləri", "Alqış təmsilləri", "Qorxulu xəstəliklər", "Mahnılar", "Monoloq təmsillər", "Xəbərdarlıqlar", "Bir aprel aldatmaları" və başqa adda maraqlı silsilə təmsilləri var. Bu başlıqlar altında verilən təmsillərdə hər obrazın xarakterik xüsusiyyyətini ustalıqla təsvir edən müəllif öz məqsəd və qayəsini ifadə etməklə yanaşı, münasibətini də bildirmiş olurdu. "Monoloq təmsillər"də cırcırama, mamır, ördək, qurbağa, çömçə, rəndə, civə, ilan monoloq söyləyirsə, onlar təkcə özlərinin deyil, xislətcə bənzəri olduqları insan obrazlarını, onların düşüncə və xarakterini ifadə etmiş olurlar. "Yeni il umacaqları"nda Göyərçin yeni təqvim ilindən dünyaya sülh, Fil fərəh və rahatlıq, Bal arısı gül-çiçək istəyəndə Tülkü bicliyinin artmasını, Zürafə ağacdakı meyvələrin hamısını özü yeməsi üçün hamının boyundan kəsilib ona verilməsini, Ayı arılara bolluca bal, amma iynələrinin olmamasını istəyir. Çaqqal hiyləgərliyin tülküdən alınıb ona verilməsini, Buqələmun işlərini aşıra bilmək üçün heç kimin sezmədiyi rəng arzulayır.

Şairin hərflər, rəqəmlər, durğu işarələrinin dilindən səslənən maraqlı təmsilləri var. Bir-birinin uğuruna sevinməyən, iddialı, hər yerdə özünü birinci görənlər, öz yerində olmayanlar hərflər, durğu işarələri vasitəsilə ifşa olunurlar:

*Kiçik "a" dedi: – Cümlə,*
*Mənlə başlasa olmaz?*
*Hərdən kiçikləri də,*
*Qabağa çəkin bir az!*
*...Bir gün sətir başında,*
*Gördülər kiçik "a"nı,*

*Dedilər: – Bu cümlənin,*
*Görün əvvəli hanı?...* [4, s.234]

Oxucu Hikmət Ziyanın təmsillərində xalq ədəbiyyatında, digər yazılı nümunələrdə rast gəlinən təmsil qəhrəmanlarından fərqli və maraqlı obrazlarla da tanış olur. "Hamı bilir ki, xalq deyimlərində, xüsusən təmsillərdə qurd – yırtıcılıq, tülkü – hiyləgərlik, dovşan – qorxaqlıq, tərlan – ucalıq, fil – əzəmət, ceyran – gözəllik, bülbül – sədaqət rəmzi kimi tanınırlar. Hikmət Ziya bu obrazlardan, onların xüsusiyyətlərindən öz əsərlərində bol-bol istifadə edir. Lakin o həm də bu ənənəvi obrazlar qalereyasını özünün bir sıra yeni, təravətli tapıntıları ilə zənginləşdirmişdir. Məsələn, kəlbətin və çəkic, ayran və nehrə, açar və qıfıl, iynə və sancaq kimi bir sıra obrazlar tamamilə yenidir: biz onlara bu biçimdə folklorumuzda, yazılı ədəbiyyatımızda, rus və avropa təmsilçilərinin əsərlərində rast gəlməmişik. Cəsarətlə demək lazımdır ki, bunlar H.Ziyanın fərdi axtarışlarının uğurlu nəticəsidir" [1, s.4].

Hikmət Ziyanın yaradıcılığında Vətən, onun əsrarəngiz gözəllikləri, maddi, mənəvi sərvətləri, tarixi nailiyyətləri də vəsf olunmuşdur. Onun Şəki, Mingəçevir, Qəbələ kimi şəhərlər haqqında əsərləri ilə yanaşı, Qarabağa həsr olunmuş şeiri də var. Şeirdə Qarabağın füsunkar təbiəti, tarixi abidələri və şəxsiyyətləri, zaman-zaman formalaşan qonaqpərvərlik, böyüklərə qədirşünas münasibət kimi dəyərləri heyranlıqla təqdim olunur:

*Köksündə hər qayası, tarixləşib tunc olan*
*Yenilməz abidəmdir yerdən göyə ucalan.*
*Yaşı yüzü ötsə də, yoxdur burda qocalan,*
*İnsan ömrü çətin ki, köç eylər Qarabağda,*
*Min ilin yorğunu da dincələr Qarabağda.* [4, s.7]

Qobustanı "daş kitab", "sirli sirdaş kitabı", rəngsiz, boyasız rəsmlər muzeyi, "yerin qövsi-qüzehi" kimi xarakterizə edən, Şəkini Qafqazın bir parçası, ana dilinin xoş hecası adlandıran şair vətən haqqında yazdığı əsərlərdə Azərbaycanın obrazını yaratmışdır:

*Xəritədə baxsan mənə, qartalam,*
*Tarix göstərməyib bir quşu çalam,*
*Haramdan uzağam, hər vaxt halalam,*
*Daş heykəl Qobustan, qədim Azığam…*
*Nəyi udmuşam ki, nəyi uduzam?!* [4, s.13]

Hikmət Ziya ülvi sevgini, saf duyğuları tərənnüm edən lirik şeirlər də yazmışdır. Bu poetik nümunələrdəki səmimi hisslərin ifadəsi, dil sadəliyi və axıcılıq bəstəkarların diqqətindən qaçmamış, onun "Sənin qəlbindən keçər", "Sən məni yad etsən", "Mən sənsiz, sən də mənsiz", "Küsüşdük, barışdıq", "Yeganəm", "Bəxtiyarlığım", "Ay yaraşıqlı", "Şirin yuxum olasan", "Sən olmasan", "Xoş gəlmisən" kimi şeirlərinə musiqilər bəstələmişlər.

Şair müxtəlif janrlarda əsərlər yazdığı kimi fərqli mövzulara da müraciət etmişdir. Onun uşaq dünyasından, təbiət gözəllik və möcüzələrindən, vətən sevgisindən, saf məhəbbət duyğularından bəhs olunan əsərləri ilə yanaşı, ictimai-siyasi mövzuda yazdığı əsərləri də var. Bu əsərlərdə bəzən yaşadığı dövrün izlərinə də rast gəlinir. "Hikmət Ziya yaradıcılığının mövzu və problematikası zəngindir. Onun yaradıcılıq nümunələri arasında ictimai-siyasi mövzuda yazdığı əsərlər xüsusi yer tutur. Doğrudur, yaşadığı Sovet dövrünün tələbi ilə Hikmət Ziya da digər qələm dostları kimi Leninə, partiyaya, kommunistlərə, sarsılmaz qardaşlığa, sosialist vətəninin, sosialist əməyinin tərənnümünə həsr olunan xeyli şeirlər yazmışdır. Ancaq yaxşı cəhət bundan ibarətdir ki, Hikmət müəllim xalqımızın milli-mənəvi dəyərlərini heç zaman unutmamış, Azərbaycançılıq ideyası onun bütün yazılarının cövhərini, mayasını təşkil etmişdir" [6].

Uzun illər uşaq mətbu orqanlarında – "Azərbaycan pioneri" qəzetində, "Göyərçin" jurnalında məsul vəzifələrdə işlədiyindən daim kiçik oxucuların marağını, zövqünü, estetik tərbiyəsini, dünyagörüşünü nəzərə alan yazıçı onlar üçün müxtəlif janrlarda – hekayə, nağıl, səhnəcik, təmsil yazmışdır. "Göyərçin" jurnalında uzun müddət "Balaca Nəsrəddin" rubrikası altında lətifələr, tapmacalar, yanıltmaclar təqdim etmişdir. Hekayələrlə yanaşı, nağıl-povest janrına da müraciət etmiş, "Qərib cinlər diyarında" adlı maraqlı əsər yazmışdır. Əsərin əsasında film də çəkilmişdir. Nağıl-povest maddi sərvət, var-dövlət üçün vətənini, doğmalarını qoyub cinlərin diyarına üz tutan Qəribin timsalında nəfsinə satılıb yadlara köləlik yolunu seçənlərin aqibəti haqqındadır. Qərib əcinə və iblislərin məmləkətini seçib onların təklif etdikləri daş-qaş qarşılığında bütün istəklərini yerinə yetirir, insanların bacardığı – ev tikmək, əkin sahəsi becərmək, taxıl yetişdirmək kimi işləri cinlərə həm öyrədir, həm də icrasında köməklik edirdi. Sonda nə qədər sərvət sahibi olsa da, xoşbəxtliyin maddiyyatda olmadığını başa düşür. Əsarətdə qalmaq, yadlara köləlik etmək, istismar olunmaq, özü üçün yox, başqası üçün işləmək onu ağrıtmağa başlayır. O qazandığı hər şeyi – işinə yaramayan daş-qaşları verib əvəzində Vətənə, anasına qovuşmaq istəyir. Qayıtmaq onun üçün asan başa gəlmir. Gedəndə anası, qardaşı, sevgilisi Zərəfşanla mübarizə aparan Qəribin yolunda indi divlər, əjdahalar, iblislər dayanır. Amma Qərib Simurq quşunun ona öyrətdiyi sehrli "Can, ay Vətən" sözünü deyə-deyə yolunun üstündəki bütün maneələri məhv edə bilir. Vətən sevgisi onun bütün qorxularına və çətinliklərinə qalib gəlir. Bütün qara qüvvələri dəf edən Qərib "– Ömrün uzun olsun, Simurq quşu! Obandan-yuvandan ayrı düşməyəsən! Balalarının canı sağ, qanadları qüvvətli olsun! Ömürləri boyu yad yerə, yad ələ keçməsinlər…" [3, s.110], – deyib, ona vətənə qayıtmaq üçün köməklik edib yol göstərən Simurq quşuna alqış edir. Yazıçı uşaqlar üçün yazdığı bu nağıl-povest vasitəsi ilə azyaşlılarda vətən sevgisi, ana öyüdünə qulaq asmağı aşılayırdı. Sovet dövründə azadlığa qovuşmaq üçün mücadilə aparan, divlərlə, əjdahalarla döyüşən, başqalarına işləməkdən imtina edən bir obraz yaratmaq yazıçıdan cəsarət tələb edirdi. Hikmət Ziya Qəribin timsalında belə obraz yaratmağa nail olmuşdur.

## Nəticə / *Conclusion*

Hikmət Ziya bədii tərcümə ilə də məşğul olmuş, rus ədəbiyyatından – A.S.Puşkinin əsərlərindən bir neçə nümunəni, İ.A.Krılovun təmsillərini Azərbaycan dilinə çevirmişdir.

Yazıçı kinematoqrafiya sahəsində də fəaliyyət göstərmişdir. "Əli Bayramlı" (1971), "Azərbaycan qadını" (1974), "Qərib cinlər diyarında" (1977), "Dəcəl dovşan" (1981) filmlərinin ssenariləri Hikmət Ziyaya məxsusdur. Həmçinin "Sınaq" pyesi Lənkəran, "Əkiz qardaşlar" dramı Abdulla Şaiq adına Kukla Teatrında tamaşaya qoyulmuş, "Mehir məsələsi", "Meşədə qala" əsərləri əsasında isə radio-tamaşalar hazırlanmışdır.

Hikmət Ziya öz çoxyönlü fəaliyyəti və yaradıcılığı ilə Azərbaycan ədəbiyyatının, xüsusilə uşaq ədəbiyyatının, uşaq mətbuatının inkişafına xidmət etmiş, Azərbaycan poeziyasında təmsil janrının formalaşmasında böyük rol oynamışdır. Onun uşaq ədəbiyyatı nümunələri quru və sönük təsvirçilikdən, nəsihətçilikdən uzaq olub mənalı və maraqlı təqdim üsulu ilə seçilmişdir.

## *Ədəbiyyat / References*


1. Nəbiyev B. Bir neçə söz // H.Ziya. Seçilmiş Əsərləri. – Bakı: Azərnəşr, 1992.
2. Həsənli B. Azərbaycan uşaq ədəbiyyatı. – Bakı: Müəllim, 2013.
3. Hikmət Z. Qərib cinlər diyarında. – Bakı: Gənclik, 1980.
4. Hikmət Z. Seçilmiş Əsərləri. – Bakı: Azərnəşr, 1992.
5. Hikmət Z. Seçilmiş Əsərləri. 3 cilddə, II c. – Bakı: Aspoliqraf, 2014.
6. Yusifoğlu R. Hikmət Ziyası. "Ədəbiyyat qəzeti", 16 may 2014-cü il.

## Хикмет Зия: мастер басни азербайджанской поэзии XX века

**Айгюн Багирли**
Доктор филологических наук, доцент
Институт литературы имени Низами Гянджеви НАНА
https://orcid.org/0000-0001-9887-7713
E-mail: aygunbagir77@gmail.com

**Резюме.** Поэт, драматург, переводчик, заслуженный деятель искусств Хикмет Зия писал произведения во многих жанрах. Поэт, автор лирических и сатирических стихов, поэм, рассказов, повестей-сказок, пьес, сценок, публицистических статей, в литературе был более известен баснями. В своих баснях Хикмет Зия часто для изображения непривлекательных событий в обществе, ошибок и неудач использовал образы животных и растений. Цель поэта состояла в том, что приводя образы животных для изображения в своих баснях присущих человеку хороших либо некрасивых поступков, пробудить в читателях, и в особенности подростках и детях, такие ценности как морально-нравственные качества, трудолюбие, справедливое отношение к окружающим, положи-тельные отношения в обществе. В творчестве Хикмета Зии прославлялись Родина, её волшебная красота, природное, нравственное богатство, исторические достижения. Хикмет Зия своей многогранной деятельностью и творчеством служил развитию азербайджанской, в особенности детской, литературы, детской прессы, сыграл большую роль в формировании басенного жанра в азербайджанской поэзии. В статье говорится о многосторонней деятельности поэта, его творчество исследовано в различных аспектах.
**Ключевые слова:** Хикмет Зия, детская литература, мастер басни, детская печать, повесть-сказка